KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 1 (14) 2022

Nailə Müzəffər qızı Mehrəliyeva
*Bakı Dövlət Universiteti*
*Kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail:* nailamehraliyeva@bsu.edu.az

*UDC 821.512.162*

# MİKAYIL MÜŞFİQİN ƏSƏRLƏRİNİN NƏŞRİ

***Xülasə:*** *Məqalədə Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan Mikayıl Müşfiqin (1908-1938) dövri mətbuatda çıxan əsərləri, həmçinin ayrıca çap olunmuş kitabları haqqında məlumat verilmişdir. Burada qeyd olunur ki, Mikayıl Müşfiq Yazıçılar Birliyinin üzvü, şair, tərcüməçi, pedaqoq olmaqla yanaşı, Azərbaycan Dövlət Nəşriyyatının redaktoru kimi də səmərəli fəaliyyət göstəmişdir.*

***Açar sözlər:*** *Azərbaycan ədəbiyyatı, Mikayıl Müşfiq, nəşr, şeir, poema, şair, poeziya, tərcümə.*

**Naila Muzaffar gizi Mehraliyeva**

## Publication of works by Mikayil Mushfig

***Summary:*** *The article provides information about the publications of the works of Mikayil Mushfig (1908-1938), one of the outstanding representatives of Azerbaijani poetry. It is noted here that Mikayil Mushfig was a member of the Writers' Union, a poet, translator, teacher, and also effectively worked as an editor of the Azerbaijan State Publishing House.*

***Key words:*** *Azerbaijani literature, Mikail Mushfig, translation, poet, publication, selected works, poem.*

**Наиля Музаффар кызы Мехралиева**

## Издания произведений Микаила Мушфига

***Резюме:*** *В статье представлена информация об изданий произведений Микаила Мушфига (1908-1938), одного из выдающихся представителей азербайджанской поэзии. Здесь отмечается, что Микаил Мушфиг был членом Союза писателей, поэтом, переводчиком, педагогом, также эффективно работал в качестве редактора Азербайджанского государственного издательства.*

***Ключевые слова:*** *Азербайджанская литература, Микаил Мушфиг, перевод, поэт, издание, избранные произведения, стихи.*

*Mikayıl Müşfiq, Hüseyn Cavid, Əhməd Cavad və o dövrdə yaşamış başqa sənətkarlar öz əsərlərində xalqımızın milli azadlıq fikirlərini əks etdirmişlər. Onlar öz əsərləri, elmi fəaliyyətləri ilə Azərbaycan xalqının elm və mədəniyyətinin yüksəlməsinə çalışmış və beləliklə də xalqı gələcəyə, milli azadlığa, müstəqilliyə doğru aparmışdılar.*

**Heydər Əliyev,**
**Azərbaycan xalqının ümummilli lideri**

İstedadlı şair, pedaqoq və tərcüməçi Mikayıl Müşfiq çağdaş Azərbaycan ədəbiyyatının ən parlaq simalarından biridir. O, milli poeziyamızın inkişafında müstəsna xidmətləri olan sənətkardır. Zəngin hafizəsi, rəvan şeir oxuması ilə həmişə diqqəti cəlb edən M.Müşfiqin "Yel döyən oğlu Səbayel" imzası ilə yazdığı və əlyazması şəklində bizə gəlib çatan 25 oktyabr 1925-ci il tarixli ilk şeiri "Kölgəliklərdə" adlanır.

Əruz vəznində yazdığı "Ölkəm" şeiri "Gənc işçi" qəzetinin 9 may 1926-cı il tarixli nömrəsində dərc olunmuşdur. O vaxtdan başlayaraq dövri mətbuatda şairin şeirləri müntəzəm olaraq çıxmışdır. Məsələn, "Gənc işci" qəzetində "Dindən təbiətə" (9 aprel 1928), "Qonağım" (1 noyabr 1928), "Radio (16 noyabr 1928), "Telefon" (16 yanvar 1929), "Ay qız" (1 fevral 1929), "Ey gənc yolçu" (3 aprel 1929), "Dağlar" (16 aprel 1929), "Poçt qutusu" (20 aprel 1929), "Qızıl gənc" (19 iyun1 929) və digər şeirləri çapdan buraxılmışdır.

Şairin "Küləklər" adlı ilk şeir kitabı 1930-cu ildə Azərbaycan Dövlət Nəşriyyatında işıq üzü görmüşdür. Bu kitaba onun əlli üç orijinal şeiri və iki tərcüməsi daxil edilmişdir.

İlk şeirləri ilə oxucuların rəğbətini qazanan şair əsərlərini "Mikayıl İsmayılzadə", "M.Y.Zadə", "Mikayıl Müşfiq" imzaları ilə dərc etdirmişdir. Onun həyatında 1932-ci il daha məhsuldar olmuşdur. "Günün səsləri", "Vuruşmalar", "Pambıq", "Buruqlar arasında" kitabları, "Şeirlər", "Çoban", "Mənim dostum", "Səhər", "Sındırılan saz", "Azadlıq dastanı", "Buruq adamı" əsərləri nəşr edilmişdir. "Azərnəşr"də bir birinin ardınca "Vuruşmalar", "Günün səsləri", "Pambıq", "Buruqlar arasında", "1 may", "Şəngül, Şüngül, Məngül", "Şeirlər", "Qaya", "Kəndli və ilan" adlı kitabları çapdan buraxılmışdır.

1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqına üzv seçilən Mikayıl Müşfiqin "Səhər" poeması "Yeddi yaxşı ədəbi əsər" mükafatına layiq görülmüşdür (1936).

M.Müşfiq Azərbaycan poeziyasının bənzərsiz, orijinal nümunələrini yaratmış, poema formasına yaradıcılığında xüsusi önəm vermişdir. "Buruqlar arasında", "Azadlıq dastanı" (1932), "Çoban", "Əfşan", "Dağlar" (1933), "Şölə", "Mənim dostum", "Dezertil" (1934), "Səhər", "Sındırılan saz" (1935) və s. bu sıradan olan əsərlərdir.

"Bir dağın başından səsləyən küləklər", - deyən şairin eyni adlı şeiri də daxil olmaqla "Tar", "Ana", "Çağlayan", "Duyğu yarpaqları", "Yaşa könül", "Yenə





o bağ olaydı" və s. əsərləri kitablarda, antalogiyalarda, dövri mətbuat səhifələrində dəfələrlə çap olunmuşdur.

Müşfiq 1937-ci ildə "Çağlayan" adlı kitabını çapa hazırlamışdı. Buraya əvvəlki kitablarındakı ən yaxşı əsərlərini, xüsusilə son zamanlar yazdığı şeir və poemaları ("Səhər", "Azadlıq dastanı", "Sındırılan saz", "Bəxtiyar", "Əbədiyyət nəğməsi", "Şeirim", "Yenə o bağ olaydı", "Çağlayan", "Duyğu yarpaqları", "Mingəçevir həsrəti", "Tərtərhes nəğmələri") daxil etmişdi.

*Qarşımda dalğalı dərin bir ümman,*
*Ümmanı sarsıdır bir acı tufan,*
*Bəyaz köpükləri bir çiçək yapan*
*Şeirdən, xülyadan necə əl çəkim? -*

deyən şairin "Həyat sevgisi" əsər də onların arasında idi. Lakin bu kitabı nəşr etdirmək şairə nəsib olmadı.

Mikayıl Müşfiq kiçikyaşlı oxucular üçün "Vuruşmalar", "Qaya" poemalarını, "Şəngül, Şüngül, Məngül", "Kəndli və ilan" kimi mənzum nağılları, "1 may", "Pambıq", "Məktəbli şərqisi", "Pioner", "Coğrafiya", "Zəhra üçün", "Pioner sarayı" və s. şeirlərini yazmışdır. Yığcam bir tərzdə, uşaqların başa düşəcəyi sadə dildə, aydın ifadələrlə yazılan bu əsərlər xüsusilə "Vuruşmalar" poeması yarımsərlövhələr altında "Dünya davası", "Davaya səbəb", "Soldat getdilər" və s. adlı hissələrə ayrılır. Bu da həmin poemanın uşaqlar üçün daha maraqlı və oxunaqlı olmasına kömək edir. Şifahi xalq ədəbiyyatının motivləri əsasında yazılmış "Şəngül, Şüngul, Məngül" mənzum nağılı şairin ayrıca kitab şəklində ən çox çap olunan əsərləri sırasındadır.

Təcrübəli bir müəllim kimi də fəaliyyət göstərən gənc şair məktəblilərdə ədəbiyyata böyük maraq oyadırdı. Şagirdlərindən biri onun haqqında belə yazırdı: "Müşfiq müəllim dərs deyəndə zəng səsini eşitməzdik. Dərs zamanı şagirdlərə şeir oxumağı öyrədəndə başqa müəllimlərimiz də gəlib bizim sıralarda oturardı. Çoxumuza "qızım, oğlum" deyə müraciət edərdi. Əslində bu ifadə onun yaşına uyğun deyildi, ancaq mehriban olduğu qədər təvazökar olan Müşfiq müəllimə bu sözlər çox yaraşırdı".

Mikayıl Müşfiq yaradıcılığının müəyyən hissəsini bədii tərcümə təşkil edir. O, 1930-1937-ci illərdə Aleksandr Puşkinin "Qaraçılar" (Ş.Abbasovla birgə), Taras Şevçenkonun "Kobzar" (Əhməd Cavadla birgə), Yegişe Çarensin "Şeirlər", Samuil Marşakın "Huşsuza bax, huşsuza", Mirzə Fətəli Axundovun "A.S.Puşkinin ölümünə Şərq poeması"nı tərcümə və nəşr etdirmişdir. Bundan başqa, Müşfiq Mixail Lermontovun "Demon" poemasını (Rəsul Rza ilə birgə), "Qafqaz" (Mikayıl Rəfili ilə birgə), "Şairin ölümünə", "Tənha yelkən ağarı" şeirlərini, Aleksandr Puşkinin "Yevgeni Onegin" mənzum romanından "Tatyananın Onegenə məktubu"nu (R.Rza ilə birgə), "Poltava" əsərindən bir parçanı, "Dustaq" şeirini, Ömər Xəyyamın rübailərinin çox hissəsini, Firdovsinin

"Şahnamə"sindən bəzi parçaları (Mirmehdi Seyidzadə ilə birgə) Azərbaycan dilinə çevirmişdir [3].

Müasir Azərbaycan poeziyasının yaranmasında və inkişafında böyük rol oynamış istedadlı şairin 5 il ərzində 10 kitabı işıq üzü görmüşdü.

Mikayıl Müşfiq 1938-ci ildə Stalin repressiyasının qurbanı olaraq güllələnmiş, yalnız 1956-cı ildə bəraət almışdır. Bu dövrdən kitabları yenidən nəşr olunmuşdur. Şairin 2 cildlik "Seçilmiş əsərləri"nin I cildi 1957-ci, II cildi isə 1960-cı ildə çapdan çıxmışdır. İkiicildliyin tərtibçisi Şəmsəddin Abbasovdur.

Sonraki illərdə şairin "Seçilmiş əsərləri" dəfələrlə nəfis tərtibatda çapdan buraxılmışdır. "Məktəblinin kitabxanası" seriyasından (Maarif, 1983) buraxılan "Seçilmiş əsərləri"nin tərtibçisi və redaktoru professor Aslan Aslanovdur. Alimin vurğuladığı kimi, Mikayıl Müşfiq yaradıcılığının görkəmli tədqiqatçısı, onun həyat və yaradıcılığı haqqında ilk sanballı monoqrafiyanın müəllifi Gülhüseyn Hüseynoğlu eyni zamanda şairin şeirlərini toplamış, onların çap olunmasında xüsusi fəallıq göstərmişdir.

Bütün yaradıcılığı boyu köhnəliklə yeniliyi qarşılaşdıran, milli və ümumbəşəri dəyərlərə öz töhfəsini verən ölməz şairin bir-birinin ardınca çapdan çıxmış "Seçilmiş əsərləri" (1968, 1970, 1973), "Duyğu yarpaqları" (1965), "Yenə o bağ olaydı" (1976), "Ədəbiyyat nəğməsi" (1978), "Həyat sevgisi" (1988), "Könlümü al, oxu" (2002) kitablarına oxucular tərəfindən sevilən şeirləri və poemaları daxil edilmişdir.

2004-cü ildə "Müasir Azərbaycan Ədəbiyyatı" seriyasında "Şərq-Qərb" nəşriyyatında şairin "Seçilmiş əsərləri" yenidən çapdan buraxılmışdır. Bu kitab "Həyat sevgisi" (Bakı, Yazıçı, 1988), Mikayıl Müşfiq. Əsərləri. III cilddə (Bakı, Səda, 2004) nəşrləri əsasında təkrar çapa hazırlanmışdır. 352 səhifə həcmində olan kitabın tərtibçisi və redaktoru Gülhüseyin Hüseynoğludur. Buraxılışa məsul Ə.Güləliyev, texniki redaktoru R.Ağayev, tərtibçi rəssam N.Əliyeva, korrektoru Y.Abbasovdur. Unudulmaz şairin seçmə əsərlərindən ibarət olan bu kitabda şeirlər, poemalar, eləcə də uşaqlar üçün mənzum nağıllar toplanmışdır.

Şairin "Seçilmiş əsərləri"nə tədqiqatçı Gülhüseyn Hüseynoğlu "Müşfiq ənənəsi yaşayır" adı ilə müqəddimə yazmışdır. O yazır: "Mikayıl Müşfiqi bütün nəsillərin müasiri edən, həmişə sevdirən onun ürəkdən gəlmiş, səmimiyyətlə dolu poeziyasının xalq ruhu ilə bağlılığıdır... Söz yox ki, ürəkdən yazdığındandır ki, ürəklərdə yaşayır. "Zaman bir dərədir, axıb dolanır, bəzən durulursa, bəzən bulanır" - söyləyən Mikayıl Müşfiqin poeziyasında elə sanballı, mənalı misralar, beytlər var ki, bunların daşıdığı poetik fikir oxucular tərəfindən razılıq hissi ilə, ürəklə, səmimiyyətlə dərhal qəbul olunur" [1, s. 8].

Mikayıl Müşfiqin "Seçilmiş əsərləri" Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə 25 min nüsxə tirajla nəşr olunmuş və kitabxanalara hədiyyə edilmişdir. Kitaba "Çoban", "Mənim dostum", "Səhər", "Sındırılan saz" poemaları, "Buruq adamı" mənzum





oçerki və uşaqlar üçün "Coğrafiya", Məktəbli şərqisi", "Zəhra üçün", "Qaya", "Şəngül Şüngül Məngül", "Kəndli və ilan" mənzum nağılları daxil edilmişdir [1].

Müstəqillik illərində Mikayıl Müşfiqin əsərləri dəfələrlə nəşr olunmuşdur. Belə ki, 2013-cü ildə şairin "Seçilmiş əsərləri" 596 səhifə həcmində və 5 min nüsxə tirajla çapdan buraxılmışdır. Bu kitab "Xalq Bank" tərəfindən həyata keçirilən "Xalq əmanəti" layihəsi çərçivəsində hədiyyəlik nəşr olunmuşdur. Seriyanın digər nəşrləri kimi bu kitabın çapında məqsəd milli şeirimizin daha bir görkəmli nümayəndəsinin xalqımıza miras qoyduğu əmanəti, həmişəyaşar şeirlərini dilimizin və həmvətənlərimiz yaddaşında təzələməkdir [3].

Layihənin redaktoru və nəşrin tərtibçisi şair, tərcüməçi Səlim Babullaoğludur. Kitab XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mikayıl Müşfiqin indiyənə qədər çap olunmuş ilk ən böyük bir cildlik "Seçilmiş əsərləri", "Xalq əmanəti" layihəsinin üçüncü poetik toplusu, bütövlükdə isə səkkizinci nəşridir. Kitaba Mikayıl Müşfiqin müxtəlif illərdə yazdığı poetik növ və formalardakı əsərləri, tərcümələri və bir məktubu daxil edilmişdir. Bu nəşrin əhəmiyyətli tərəflərindən biri də odur ki buraya şairin ölümündən sonra nəşr olunan kitablarından bəzi təhliflər aradan qaldırılmışdır. "Səni kim unudar" adlı "Ön söz əvəzi"nin müəllifi Səlim Babullaoğludur. Bu nəşr bədii tərtibatı və poliqrafik icrası baxımından diqqəti çəkir [3].

Mikayıl Müşfiqin "Seçilmiş əsərləri"ndə ölümündən sonra nəşr olunan kitablarındakı bütün təhriflər aradan qaldırılmaqla bərabər ilk dəfə 6 şeiri bəzən yeni redaktə də, bəzən isə şairin sağlığında işıq üzü görmüş kitablarındakı nümunələrə əsasən təqdim edilmişdir. Şairin həyatı ilə bağlı fotolar, əlyazmalarının faksimilesi, arxiv sənədlərinin surəti nəşri dolğunlaşdırmağa xidmət edir. Akademik Rafael Hüseynovun "Bağ romanı" essesi kitabın "Ön söz" əvəzi kimi verilmişdir [3].

Tərtibçinin qeyd etdiyi kimi, kitab üçün seçilmiş poetik əsərlər, tərcümələrin xaricində, "Ana. Vətən. Həyat", "İnsan. Təbiət. Tərəqqi", "Gözəllik. Sevgi", "Müxtəlif illərin şeirləri", "Yaddaşlardakı şeirlər", "İthaflar", "Uşaqlar üçün şeirlər, poemalar, mənzum nağıllar", "Tərcümələr" kimi tematik başlıqlarda təsnifləşdirilmiş və hər bir bölgüdə təqdim olunan əsərlər yazılma tarixinə əsasən sıralanmışdır. Bölgülərin sonunda isə şairin irihəcmli əsərləri, poemaları və mənzum nağılları yer almışdır.

Kitabın "Ana. Vətən. Həyat" bölməsinə şairin "Ölkəm", "Birgün", "Ana", "Tar", "Duyğu yarpaqları" şeirləri ilə yanaşı "Sındırılan saz" poeması daxil edilmişdir. "İnsan. Təbiət. Tərəqqi" bölməsində "Ay qız", "Bir görüş", "Telefon", "Küləklər", "Buludlar", "Dağlar", "İşçi qız" şeirləri, "Çoban", "Mənim dostum" poemaları yerləşdirilmişdir. "Gözəllik. Sevgi" bölməsi "Yadıma düşdü", "Sənin gülüşlərin", "Mənim eşqim", "Yenə o bağ olaydı", eləcə də "Yaddaşdaki şeirlər" silsiləsində "Yaşa könlüm", "Qurban olduğum", "Maral", "Sənə qurban", "Dilbər" və s. şeirləri əhatə edir. "İthaflar" adlanan digər bölümdə "Nigar", "Hörmətli qəzetimiz", "Heykəl qarşısında", "Qəzəl", "Şairin ölümü", "Ey şair" və s. əsərləri,

"Uşaqlar üçün şeirlər" bölməsində poemalar, mənzum nağıllar əhatə olunmuşdur.

Kitaba şairin 1930-1937-ci illərdə dünya ədəbiyyatından: Firdovsinin "Şahnamə" poemasından parça, Ömər Xəyyamın "Rübailəri", A.S.Puşkinin "Poltava" poemasından parça, "Qaraçılar" poeması, M.Y.Lermantovun "Şairin ölümünə", "Demon" poemaları, T.Şevçenkonun "İşci qadın" poeması ilə yanaşı "Qafqaz", "Vəsiyyət", "Biz cocuqluq zamanı bir evdə" ,"Düşüncələrim", "Dualar", S.Y.Marşakın "Huşsuza bax, huşsuza" və İ.P.Utkinin "Gecə çeşməsi" əsərlərindən etdiyi tərcümələr daxil edilmişdir [3].

Mirzə Fətəli Axundzadə adına Milli Kitabxanada "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından Mikayıl Müşfiqin anadan olmasının 110 illiyi münasibəti ilə tərtib edilən 248 səhifəlik biblioqrafiya 2018-ci ildə nəşr olunmuşdur. Biblioqrafiyada şairin həyat və yaradıcılığı, kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri haqqında material toplanmışdır. Göstəricinin tərtibçiləri Həliməxanım Manafova, Gülbahar Misirova, Günel Əfəndiyeva, elmi redaktoru Əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov, redaktoru Əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyevadır. Mikayıl Müşfiq haqqında ilk fundamental biblioqrafiya olan bu nəşrdə "Həyat və yaradıcılığının əsas tarixləri", "Mikayıl Müşfiq poeziyasından nümunələr", "Görkəmli şəxsiyyətlər Mikayıl Müşfiq haqqında" bölmələri, 1926-2018-ci illərdə dərc olunan, şairin ədəbi fəaliyyətini əks etdirən materiallar öz əksini tapmışdır. göstəricidə ədəbiyyat xronoloji qaydada qruplaşdırılmış, xronoloji çərçivə daxilində isə əlifba sırası ilə göstərilmişdir. Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədi ilə sonda köməkçi göstəricilər tərtib olunmuşdur [4].

Mikayıl Müşfiq sözə hakim olmağı bacaran şair idi. Onun yaradıcılığı ədəbiyyatşünaslar, şair və yazıçılar tərəfindən həmişə diqqət mərkəzində olmuşdur. Xalq yazıçısı, akademik Mirzə İbrahimov yazır: "Müşfiq böyük istedad idi. On bir ildə o, nə qədər gözəl şeir nümunələri yaratmışdır. Onda rahatlıq, həyat eşqi ilə sənət elmi ilə daima çırpınan bir ürək vardı. Hələ otuzuncu illərdə Səməd Vurğun onun istedadına yüksək qiymət vermişdi" [4, s. 31].

Müşfiq incə hisslər, kövrək duyğular, məhəbbət və bəşəri ideyalar şairi idi. Onun poeziyası insan qəlbinin dərinliklərinə bundan sonra da nüfuz edəcəkdir.

## ƏDƏBİYYAT

1. *Mikayıl Müşfiq.Secilmiş əsərləri. – Bakı: Şərq-Qərb,2004. - 352 s.*

2. *Müasir Azərbaycan ədəbiyyatı. – Bakı: Bakı Universiteti Nəşriyyatı,2007.-504s*

3. *Mikayıl Müşfiq. Seçilmiş əsərləri (tərt. və red. S.Babullaoğlu). – Bakı: Xalq Bank, 2013. - 596 s.*

4. *Mikayıl Müşfiq (Mikayıl Mirzə Əbdülqadir oğlu İsmayılzadə): biblioqrafiya / tərt. ed.: H.Manafova, G.Misirova, G.Əfəndiyeva; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva. – Bakı, 2018. – 248 s.*

5. *Talıbzadə Kamal. Tənqid və tənqidçilər. – Bakı: Yazıçı, 1989. – 490 s.*